**“Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 438 nömrəli Fərmanının 2.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş siyahıda göstərilən informasiya sistemlərinə fərdi identifikasiya nömrəsi həmin informasiya sistemləri qanunvericiliklə müəyyən edilmiş qaydada sertifikatlaşdırıldıqdan sonra daxil edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri 5 fevral 2008-ci il
28

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2008-ci il 5 fevral tarixli 28 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan *və ya qaçqın statusu almış* əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin**

**S İ Y A H I S I**

Vətəndaşlıq vəziyyəti aktlarının ümumrespublika elektron məlumat bankı (Ədliyyə Nazirliyi).

“Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi (Daxili İşlər Nazirliyi).[2]

Sürücülük vəsiqələrinin avtomatlaşdırılmış məlumat sistemi (Daxili İşlər Nazirliyi).

Nəqliyyat vasitəsinin dövlət qeydiyyatından keçirilməsi və daimi uçota alınması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsi və digər qeydiyyat hərəkətlərinin aparılmasına aid reyestr (səlahiyyətləri daxilində Daxili İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Gənclər və İdman Nazirliyi).

Vergi ödəyicilərinin vahid dövlət reyestri (Vergilər Nazirliyi).

ƏDV ödəyicilərinin vahid dövlət reyestri (Vergilər Nazirliyi).

Əhalinin sağlamlığının milli monitorinq sistemi (Səhiyyə Nazirliyi).

Doğum və ölüm reyestri (Səhiyyə Nazirliyi).

*Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığa götürmə altsistemi (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi).*[3]

Fərdi uçot sistemində sığortaolunanların məlumat bazası (*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi*).[4]

~~Əcnəbinin Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün verilmiş və ləğv edilmiş fərdi icazələrin reyestri (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi).~~[5]

Mərkəzləşdirilmiş kredit reyestri sistemi (*Maliyyə Bazarlarına Nəzarət Palatası*).[6]

Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestri (Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı və Azərbaycan Respublikasının *Dövlət İmtahan Mərkəzi*).[7]

Daşınmaz əmlakın dövlət reyestri (Əmlak Məsələləri Dövlət Komitəsi).[8]

“Tələbə-məzun” dövlət elektron məlumat sistemi (*Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi*).[9]

*“Şagird-məzun” dövlət elektron məlumat sistemi (Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi).*[10]

*Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi (Dövlət Miqrasiya Xidməti).*[11]

*Hüquqi və fiziki şəxslərə verilmiş torpaq sahələri üzrə informasiya ehtiyatı (Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi).*[12]

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 8 may 2008-ci il tarixli **111** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 434**)
2. 1 iyul 2008-ci il tarixli **150** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 672**)
3. 30 iyul 2009-cu il tarixli **114** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 610**)
4. 30 sentyabr 2009-cu il tarixli **157** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 846**)
5. 12 aprel 2010-cu il tarixli **61** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 4, maddə 355**)
6. 31 avqust 2010-cu il tarixli **160** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 8, maddə 769**)
7. 19 mart 2014-cü il tarixli **85** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 1 aprel 2014-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 03, maddə 316**)
8. 5 may 2014-cü il tarixli **127** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 23 may 2014-cü il, 107; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 05, maddə 556)**
9. 1 iyul 2016-cı il tarixli **263** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 6 iyul 2016-cı il, 144 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1343**)
10. 22 noyabr 2016-cı il tarixli **475** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 24 noyabr 2016-cı il, 260 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1963**)
11. 23 dekabr 2016-cı il tarixli **523** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 27 dekabr 2016-cı il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2239**)
12. 8 noyabr 2018-ci il tarixli **478** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 13 noyabr 2018-ci il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2428 )**
13. 12 aprel 2019-cu il tarixli **169** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 17 aprel 2019-cu il, 82 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 763)**
14. 24 mart 2020-ci il tarixli **108** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti 07 aprel 2020-ci il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 369)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 12 aprel 2019-cu il tarixli **169** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 17 aprel 2019-cu il, 82 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 763 )** ilə qərarın adına, 1-ci hissəsinə və həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı”nın adına “**daimi yaşayan**” sözlərindən sonra “**və ya qaçqın statusu almış** ” sözləri əlavə edilmişdir.

[2] 1 iyul 2008-ci il tarixli **150** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 672**) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı”nın ikinci abzasında **“Giriş-Çıxış” Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi**” sözləri **“Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi**” sözləri ilə əvəz edilmişdir.

[3] 24 mart 2020-ci il tarixli **108** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti 07 aprel 2020-ci il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 369)** ilə “Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı”nın doqquzuncu abzası yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Valideyn himayəsindən məhrum olan uşaqların mərkəzləşdirilmiş reyestri (Səhiyyə Nazirliyi və Təhsil Nazirliyi).~~

[4] 8 may 2008-ci il tarixli **111** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 434**) ilə «Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı»nın onuncu abzasında «**sığorta olunanların**» sözləri «**sığortaolunanların**» sözü ilə əvəz edilmişdir.

1 iyul 2016-cı il tarixli **263** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 6 iyul 2016-cı il, 144 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1343**) ilə “Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı”nın onuncu abzasında “**Dövlət Sosial Müdafiə Fondu**” sözləri **“Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** ” sözləri ilə əvəz edilmişdir.

[5] 5 may 2014-cü il tarixli **127** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 23 may 2014-cü il, 107; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 05, maddə 556)** ilə “Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı”nın on birinci abzası ləğv edilmişdir.

[6] 30 iyul 2009-cu il tarixli **114** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 610**) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın "**Milli Bank**" sözləri "**Mərkəzi Bank**" sözləri ilə əvəz edilmişdir.

22 noyabr 2016-cı il tarixli **475** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 noyabr 2016-cı il, 260 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1963**) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın on birinci abzasında "**Mərkəzi Bank**" sözləri "**Maliyyə Bazarlarına Nəzarət Palatası**" sözləri ilə əvəz edilmişdir.

[7] 23 dekabr 2016-cı il tarixli **523** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 27 dekabr 2016-cı il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2239**) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın on ikinci abzasda "**Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya**" sözləri "**Dövlət İmtahan Mərkəzi**" sözləri ilə əvəz edilmişdir.

[8] 30 sentyabr 2009-cu il tarixli **157** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 846**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nda "**(Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti)**" sözləri "**(Əmlak Məsələləri Dövlət Komitəsi)**" sözləri ilə əvəz edilmişdir.

[9] 12 aprel 2010-cu il tarixli **61** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 4, maddə 355**) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"na on beşinci abzas əlavə edilmişdir.

23 dekabr 2016-cı il tarixli **523** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 27 dekabr 2016-cı il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2239**) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın on dördüncü abzasda "**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası**" sözləri **"Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi**" sözləri ilə əvəz edilmişdir.

[10] 8 noyabr 2018-ci il tarixli **478** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 noyabr 2018-ci il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2428** ) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın on beşinci və on altıncı abzasları müvafiq olaraq on altıncı və on yeddinci abzaslar hesab edilmişdir və yeni məzmunda on beşinci abzas əlavə edilmişdir.

[11] 31 avqust 2010-cu il tarixli **160** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 8, maddə 769**) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"na yeni məzmunda on altıncı abzas əlavə edilmişdir.

[12] 19 mart 2014-cü il tarixli **85** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 1 aprel 2014-cü il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 03, maddə 316**) ilə "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"na yeni məzmunda on yeddinci abzas əlavə edilmişdir.